# SAĞLAMLIĞIN QORUNMASI VACİB MƏSƏLƏDİR

Salyan rayonunda fəaliyyət göstərən tibb müəssisələri və onların işçiləri islahatların həyata keçirilməsində səylə çalışırlar. Dövlətimizin rəhbəri cənab İlham Əliyevin daimi diqqət və qayğısına cavab olaraq sakinlərin bütün növ xidmətlərlə əhatə edilməsinə ardıcıl diqqət yetirilir, əhaliyə göstərilən səhiyyə xidmətinin yüksəldilməsi sahəsində müntəzəm olaraq təsirli tədbirlər hazırlanıb həyata keçirilir.

Tibb xidmətinin elə sahələri var ki, orada işləmək qat-qat çətin və məsuliyyətlidir. Belə tibb ocaqlarından biri Salyan Rayonlararası Psixatriya Xəstəxanasıdır.

**Xəstəxananın baş həkimi Yaşar Kərimov** bildirdi ki, burada insanların sağlamlığı keşiyində 5 həkim, 38 orta və 81 kiçik tibb işçisi dayanmışdır. Onların hamısı insanların həyatını can-başla qoruyan, şərəfli həkim andına sadiq olan adamlardır. Hazırda burada 111 xəstə müalicə olunur.

Xəstəxana öz peşəsinin sirlərini mükəmməl bilən, bu işə yüksək məsuliyyət və vicdanla yanaşan kadrlarla yetərincə komplektləşdirilmişdir. Onların ixtisasının artırılması, praktiki və nəzəri biliklərinin yüksəldilməsi, gənc tibb işçilərinin öz peşəsinin bilicisi kimi yetişdirilməsi daim diqqət mərkəzindədir.

Maddi-texniki bazanın möhkəmləndirilməsi xidmətin yüksəldilməsində mühüm rol oynayır. Son vaxtlar xəstəxanada bu sahədə xeyli iş görülmüşdür. 100 çarpayılıq ikimərtəbəli yeni bina tikilib xəstələrin istifadəsinə verilmişdir. Xəstəxanaya qəbulda heç bir problem yoxdur. Xəstəxana müxtəlif tibbi avadanlıqlarla, bərk və yumşaq inventarla təmin olunmuşdur. Buradakı soyuducularda dərmanların keyfiyyətli halda saxlanılması təmin edilmişdir. Ərazidə



abadlıq və yaşıllaşdırma işləri görülmüşdür. Xəstələrə müntəzəm olaraq mədəni xidmət göstərilir, burada hətta idman yarışları da keçirilir.

Söhbət zamanı xəstəxananın baş həkimi Yaşar Kərimov onu da qeyd etdi ki, ölkəmiz və xalqımız Heydər Əliyev siyasi məktəbinin layiqli yetirməsi cənab İlham Əliyevin rəhbərliyi altında daim möhtəşəm qələbələrə imza atır, xüsusilə sosial sahəyə qayğı gücləndirilir. Sosial cəhətdən aztəminatlı insanlara xidmət sahəsində tədbirlər həyata keçirilir, ana və uşaqların mühafizəsi, tibbi-profilaktika işlərinin görülməsi, dərman və avadanlıq təminatının yaxşılaşdırılması və digər məsələlər daim diqqət mərkəzində saxlanılır. Bizə respublikanın 8 rayonundan xəstələr müraciət edirlər və biz onları qəbul edirik. Müalicə etdiyimiz insanların hər biri cəmiyyətimizin üzvləridir. İşçilərimiz hamılıqla söz vermişlər ki, insanların rifahı üçün əllərindən gələni əsirgəməyəcəklər.

Salyan Rayonlararası Psixatriya Xəstəxanasının kollektivinin üzvləri bu fəaliyyətin nə qədər məsuliyyətli və taleyüklü olduğunu yaxşı başa düşür, dövlət başçısının müəyyən etdiyi tapşırıqların dürüst yerinə yetirilməsinə çalışırlar. Sürətli inkişaf, sosial həyatın dinamik ritmi, ölkədə baş verən müsbət proseslər tibb sahəsinə də əhəmiyyətli təsirini göstərir, xidmətin keyfiyyətinin yüksəldilməsində qarşıya qoyulmuş möhtəşəm vəzifələr layiqincə yerinə yetirilir.

**Sabir MUSTAFAYEV,**
**"Respublika".**